SİYASƏT

Bəşir Süleymanlı: 'USAID dövlət qurumlarına da pul ayırıb, mənə isə dəfələrlə az'

Noyabr 20, 2026



Bəşir Süleymanlı

Yerli və beynəlxalq qeyri-hökumət təşkilatları (QHT) ilə bağlı cinayət işi üzrə həbsdə olan ictimai fəallardan daha birinə — "Vətəndaş Hüquqları İnstitutu" İctimai Birliyinin rəhbəri **Bəşir Süleymanlı**ya 7 il 6 ay həbs cəzası verilib. Noyabrın 19-da Bakı Ağır Cinayətlər Məhkəməsində ona hökm oxunub.

Hakim Vüqar Seyidovun sədrliyi ilə çıxarılan hökmə əsasən, B.Süleymanlı vəzifə səlahiyyətlərindən sui-istifadə, cinayət yolu ilə əldə edilmiş vəsaitlərin leqallaşdırılması və digər əməllərdə təqsirli bilinib. İstintaq materiallarında qrant vəsaitlərinin rəsmi

qeydiyyatdan keçirilmədiyi iddia olunur və bu səbəbdən həmin məbləğ qanunsuz gəlir sayılır.


Bəşir Süleymanlı: "Bu, tamamilə siyasi məsələdir"

46 yaşlı fəal hökmdən əvvəlki son sözündə ona irəli sürülən ittihamların uydurma olduğunu deyib. Vəkili Elçin Sadıqovun müdafiə çıxışı ilə razılaşdığını bildirən Süleymanlı cinayət işini əsassız sayaraq barəsində bəraət hökmü çıxarılmasını istəyib.

O hesab edir ki, işdəki maddələri sadəcə Cinayət Məcəlləsindən ittiham aktına köçürüblər: **"Heç bir fəaliyyəti düzgün və dəqiq uyğunlaşdırmadan bank sənədləri, şahid ifadələri ilə ittiham aktını yalandan doldurublar".**

Süleymanlının sözlərinə görə, proses məhz USAID-lə (ABŞ Beynəlxalq İnkişaf Agentliyi) bağlıdır: "Oradan maliyyə alanlardan kim müstəqil qeyri-hökumət təşkilatıdırsa (QHT), məqsəd elə onlara təzyiq göstərmək idi".

O, bütün xidmət müqavilələrinin qanuni şəkildə bağlandığını deyib: **"Təbii ki, burada söhbət USAID-dən alınan vəsaitin cinayət sayılmasından gedir. Bu məsələdə selektiv yanaşma var... Yəni USAID-dən maliyyə almaq cinayət əməlidirsə, onda hamıya şamil edilməlidir. Bu yanaşma mənim müstəqil fəaliyyətimlə bağlıdır və ifadə, birləşmək azadlığımın pozulması deməkdir".**



Hüquq müdafiəçisi deyib ki, ittiham aktında onun xarici səfərlərindən də yazılıb: "Heç vaxt getmədiyim Rusiyanın adı çəkilir, Gürcüstanın adı çəkilir. Mən Gürcüstanda

böyümüşəm və oraya dəfələrlə səfər etmişəm. Bunun cinayətlə nə əlaqəsi var? Rusiyada isə heç vaxt olmamışam, amma aktda əksini yazıblar. Belə cəfəng məsələləri daxil ediblər sənədə".

Süleymanlı USAID-in Azərbaycanda müxtəlif layihələr həyata keçirdiyini də xatırladıb: **"USAID TƏBİB-ə, Səhiyyə Nazirliyinə, KOBİA-ya (Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi), Kənd Təsərrüfatı Nazirliyinə, Ədliyyə Nazirliyinə, prokurorluğa pul ayrırıb. Mənə isə bu qurumlara verilənlərdən dəfələrlə az".**

B.Süleymanlının adını çəkdiyi dövlət qurumlarından məsələyə ayrıca münasibət öyrənmək mümkün olmayıb.

USAID haqqında

2023-cü ilin noyabrında Azərbaycanda müstəqil media və QHT-lərə qarşı yeni həbs dalğası başlayandan sonra hökumətyönlü mediada USAID-lə əməkdaşlıq edən fəallar haqqında ittiham xarakterli materiallar yayılıb, onların ünvanına "xain", "agent" və bu kimi digər ağır ifadələr səsləndirilib.

Ardınca təşkilatın ölkədəki fəaliyyəti dayandırılıb. Azərbaycanın xarici işlər naziri **Ceyhun Bayramov** bildirib ki, 2024-cü il iyunun 1-dən qurumun bu ölkədə işi de-yure mümkün deyil və onun bundan sonra Azərbaycanda təmsilçiliyinin qalmasının heç bir əsası yoxdur.

ABŞ dövlət katibi **Marko Rubio** 2025-ci ilin avqustunda USAID-in fəaliyyətinə xitam verildiyini elan edib. BMT-nin məlumatına görə, qlobal humanitar yardımın 40 faizindən çoxunu təmin edən bu agentlik ABŞ hökumətinin beynəlxalq yardımlar üzrə əsas qolu sayılırdı.

Xatırlatma

Azərbaycanda QHT-lərlə bağlı 2014-cü ildə açılan cinayət işi 2022-ci ildə dayandırılmışdı. 2025-ci ilin fevralında Baş Prokurorluq istintaqı yenidən bərpa edib və xarici donorlarla işləyən ictimai fəallara qarşı cinayət işi qaldırıb. Nəticədə beş nəfər həbs edilib, 10-a yaxın fəal haqqında həbslə bağlı olmayan digər qətimkan tədbirləri seçilib, iki nəfər isə axtarışa verilib.

Həbs edilənlər arasında B.Süleymanlı ilə yanaşı, "Ubuntu" Sosial İş Assosiasiyası təşəbbüs qrupunun rəhbəri **Zamin Zəkiyev**, Gəncə Regional İcma Mərkəzinin rəhbəri **Asəf Əhmədov** və Seçki Müşahidə Alyansının icraçı direktoru **Məmməd Alpay**

(Məmmədzadə) da var. Artıq onlardan A.Əhmədova 8 il, Z.Zəkiyevə isə 7 il 3 ay həbs cəzası kəsilib.

Barəsində alternativ qətimkan tədbiri seçilmiş fəallardan Aygül Pəncəliyeva, Nərgiz Muxtarova, Asiman Qocayev, Mehriban Rəhimli, Məhərrəm Göyüşoğlu, Ülviyyə Babasoy və digərlərinə isə şərti cəza verilib.

Təqsirləndirilən bütün QHT təmsilçiləri ittihamları rədd edir və heç bir cinayət törətmədiklərini deyirlər.

Buna da bax:

Həbsdəki jurnalistlərin və fəalların çağırışını eşidən varmı: 'Birləşməyə adam qalmayıb'

'QHT işi' üzrə daha bir hökm: 'Kitablardan oxuduqlarım bu gün başıma gəlir'

QHT işi: 'Əlimdə Ədliyyə Nazirliyinin idarə rəisinin imzalı, möhürlü məktubu var'

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur